

# Tariximizin milli iradə və qəhrəmanlıq səhifəsi

**Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsi tarixin müxtəlif dövrlərində qəhrəmanlıq nümunələri ilə zəngin olub. Belə şərəfli salnamələrdən biri - 1990-cı il 20 Yanvar hadisələridir ki, bu tarix Azərbaycan xalqının azadlıq uğrunda göstərdiyi qəhrəmanlığın, əzminin və mübarizəsinin simvoluna çevrilib. Artıq bu faciədən 35 il ötür.**

20 Yanvar, əslində, xalqımızın illərlə içində yığdığı azadlıq arzusunun böyük ifadəsi idi. SSRİ-nin dağılmağa başladığı 1980-ci illərin sonlarında Azərbaycan xalqı, Ermənistanın Qarabağla bağlı iddialarına və mərkəzi hökumətin ədalətsiz siyasətinə qarşı güclü etiraz səsini yüksəltdi. Xalqın milli-azadlıq hərəkatı getdikcə genişləndi və SSRİ rəhbərliyinin repressiv tədbirləri ilə qarşılandı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyi, Azərbaycan xalqının azadlıq mübarizəsini boğmaq məqsədilə Bakıya qoşun yeritdi. Bu hücum zamanı ağır silahlarla silahlanmış sovet ordusu dinc əhalini hədəf alaraq amansız qətliam törətdi. Nəticədə 200-ə yaxın insan həlak oldu, yüzlərlə insan yaralandı və itkin düşdü.

Bu hadisə, sadəcə, faciə kimi deyil, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi tarixə yazıldı. 20 Yanvar gecəsi Azərbaycan xalqı azadlıq və müstəqillik uğrunda necə sarsılmaz olduğunu bütün dünyaya nümayiş etdirdi. Hərbi təcavüzə baxmayaraq, insanlar meydanlardan çəkilmədi, azadlıq ideyalarını daha da gücləndirdi.

Qanlı Yanvar hadisələri Azərbaycan xalqının milli azadlıq şüurunun daha da oyanmasına səbəb oldu. Bu faciə, eyni zamanda, xalqın öz müstəqilliyini bərpa etmək uğrunda apardığı mübarizənin başlanğıc nöqtələrindən biri oldu. Şəhidlərimiz azadlıq yolunda öz həyatlarını qurban verdilər, onların mübarizəsi nəticəsində Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdi.

Bu gün milli-mənəvi dəyərlərin qorunması, tariximizin yaddaşlarda daim yaşaması və xalqımızın qəhrəmanlıq səhifələrinin gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. Azərbaycanın müstəqilliyini möhkəmləndirmək və 20 Yanvar şəhidlərinin əziz xatirəsini uca tutmaq istiqamətində Prezident İlham Əliyevin siyasəti mühüm rol oynayır.

Dövlətimizin başçısı 20 Yanvar hadisələrinin beynəlxalq səviyyədə tanınması və bu faciəyə ədalətli qiymət verilməsi üçün də mühüm işlər görüb. Dövlət səviyyəsində qeyd edilən anım tədbirləri, şəhid ailələrinə göstərilən xüsusi diqqət və qayğı, bu istiqamətdə qəbul edilən qərarlar xalqın tarixə olan ehtiramının bariz nümunəsidir. İlham Əliyevin rəhbərliyi ilə Şəhidlər Xiyabanının abadlaşdırılması və şəhid ailələrinin sosial təminatının gücləndirilməsi bu sahədəki fəaliyyətin davamlı olduğunu göstərir.

Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər, 20 Yanvar şəhidlərinin və digər azadlıq uğrunda canından keçən vətəndaşlarımızın arzularının gerçəkləşməsi kimi qəbul edilir. Qarabağın azad olunması ilə Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda verdiyi qurbanlar bir daha öz əhəmiyyətini və dəyərini sübut etdi.

20 Yanvar hadisəsi təkcə Azərbaycan xalqının deyil, eyni zamanda, keçmiş sovet xalqlarının azadlıq hərəkatları üçün də mühüm bir nümunə oldu. Bu tarix dünya ictimaiyyətinə Sovet İttifaqının demokratik dəyərləri necə kobudcasına pozduğunu göstərdi. Azərbaycan xalqının öz hüquqlarını müdafiə etmək yolunda cəsarəti digər xalqlara da ilham verdi.

20 Yanvar tarixi Azərbaycan xalqının azadlıq mübarizəsinin əzəmətini və əzmini göstərən ən parlaq səhifələrdəndir. Bu tarix xalqımızın milli iradəsinin, müstəqillik ideallarına olan sarsılmaz inamının simvoludur. 20 Yanvar şəhidlərinin ruhu xalqımızın qəlbində əbədi yaşayır və onların göstərdiyi qəhrəmanlıq hər bir azərbaycanlı üçün ilham mənbəyidir.

Azərbaycan xalqı azadlıq uğrunda verdiyi qurbanları heç zaman unutmur və bu dəyərləri qorumaq uğrunda mübarizəsini davam etdirir.

**Ruslan KƏRİMOV**

**ELM**